**18.01.2005**

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**1990-cı il 20 Yanvar faciəsinin 15-ci ildönümü ilə əlaqədar**

# BƏYANATI

**Sovet imperiyasının Azərbaycana qarşı genosid siyasətinin tərkib hissəsini təşkil edən, insan hüquq və azadlıqlarının kütləvi pozulması ilə nəticələnmiş və tarixə 20 Yanvar faciəsi kimi düşmüş o müdhiş gecədən on beş il keçir. XX əsrdə insanlığa qarşı törədilmiş zorakılığın, qeyri-insani rəftarın, işgəncələrin ən dəhşətli səhifələrindən biri olan bu faciə xalqımızın qan yaddaşına əbədi həkk olunmuşdur.**

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş SSRİ-nin prezidenti Mixaıl Qorbaçovun göstərişi ilə xüsusi hərbi birləşmələr və zirehli texnika Bakı və Sumqayıt şəhərlərinə, habelə Azərbaycanın bir neçə rayonuna yeridilmiş, dinc əhaliyə xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə divan tutulmuş, öz torpaqlarının müdafiəsi naminə mübarizəyə qalxmış yüzlərlə silahsız insan, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yaralanmış, itkin düşmüş, inzibati binalara, yaşayış evlərinə, nəqliyyat vasitələrinə ciddi zərər vurulmuşdur.**

**İnsanlıq simasını itirmiş hərbi canilər hətta təcili yardım maşınlarını tankların altında qoyaraq yaralıların köməyinə gələn həkimlərə qarşı silah işlətmiş, həlak olanların dəqiq sayını gizlətmək üçün onların cəsədlərini məhv etmişlər.**

**İnsan hüquqlarının təmin edilməsi və müdafiəsi ilə bağlı beynəlxalq müqavilələri imzalayan, demokratiyadan və yenidənqurmadan danışan, hüquqi dövlət yaratmaq iddiasında olan Sovet dövləti beynəlxalq hüquq normalarını və SSRİ Konstitusiyasını pozaraq SSRİ Ali Sovetinin sanksiyası və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin razılığı olmadan yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycana qarşı misli görünməmiş hərbi təcavüz edərək insanların ən ali hüququ olan yaşamaq hüququnu kütləvi şəkildə pozmuşdur.**

**Bu cinayətləri ört-basdır etməyə və hərəkətlərinə hüquqi don geydirməyə çalışan o vaxtkı SSRİ rəhbərliyi həmin tədbirlərin insanların hüquq və azadlıqlarının müdafiəsi məqsədini daşıdığını iddia etsə də, həyata keçirilmiş aksiyanın qeyri-hüquqi və cinayət xarakterli olduğu özünü açıq-aydın göstərdi.**

**SSRİ Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizlik Komitəsinin birgə həyata keçirdiyi əməliyyat nəticəsində təkcə Bakı şəhərində 130-dan artıq mülki şəxs öldürülmüş, 600-dən çox adam yaralanmışdır.**

**Bu müdhiş faciə bəşər tarixində dövlətin öz vətəndaşlarına qarşı törətdiyi ən qatı cinayətlərdən biri, misilsiz vəhşilik nümunəsi kimi sovet imperiyasının bədnam tarixinə həkk olunmuş qara səhifələrdəndir.**

**Hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də öz həyatını təhlükə qarşısında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələn Heydər Əliyev sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı etdiyi bu zorakılığı pisləmiş, bunu bütöv bir xalqa qarşı həyata keçirilmiş qəsbkarlıq və cinayətkar hərəkət adlandırmış, təcavüzə kəskin etirazını bildirmişdir. O öz çıxışında ilk dəfə olaraq hadisələrə siyasi qiymət vermiş, bu faciəni törədənlərin ədalət mühakiməsi qarşısında cavab verməli olduğunu bəyan etmişdir.**

**20 yanvar 1990-cı il Azərbaycan xalqına qarşı mütəşəkkil terror siyasətinin, demək olar ki, başlanğıcı, silsilə terror aktları sırasında ən ağır zərbələrdən biridir. Sovet hakimiyyəti bu cinayətlə Ermənistanın azğınlaşmış siyasi qüvvələrinə dəstək vermiş, nəticədə Azərbaycana qarşı həyata keçirilən uzunmüddətli erməni təcavüzü, etnik təmizləmə, Kərkicahan və Xocalı soyqırımları baş vermiş, torpaqlarımızın 20 faizi zəbt edilmiş, Dağlıq Qarabağ və ətraf rayonlardan əhali zorla qovulmuş, soydaşlarımızın bir milyon nəfəri, yəni hər səkkizindən biri öz doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişdir.**

**Azərbaycanda öz hökmranlığını təsdiqləmək niyyətilə bu qanlı hadisələri törədən imperiya əks-nəticə ilə üzləşdi. Həmin aksiya sovet rejiminin qəddarlığını, saxtalığını və artıq iflasa uğradığını bütün dünyaya bəyan etdi, sovetlər ölkəsinə, sovet ordusuna və sovet xalqının sarsılmaz vahid ailə olduğuna inamı puça çıxardı, xalqımızın imperiya buxovlarından qurtulmasına, azadlıq uğrunda mübarizlik əzminin möhkəmlənməsinə güclü təkan verdi.**

**Ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə ilk dəfə olaraq Milli Məclis tərəfindən bu hadisəyə rəsmi siyasi və hüquqi qiymət verilmiş, həmin qırğının Azərbaycan xalqının azadlıq və müstəqillik mübarizəsinə divan tutmaq üçün törədildiyi bəyan edilmişdir.**

**Bu gün böyük qürur hissi ilə demək olar ki, sovet hərbi birləşmələrinin misli görünməmiş qəddarlığı xalqımızın azadlıq arzusunu boğa bilmədi və bu yolda şəhidlər verən xalqımız öz iradəsindən dönmədi. Şəhidlər Xiyabanı, habelə ölkəmizin şəhər və rayonlarında şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə salınmış xiyabanlar xalqımızın və qonaqlarımızın ziyarətgah yerinə çevrildi.**

**Şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün ucaldılmış əzəmətli abidələr, onların uyuduğu torpaq hər bir soydaşımız üçün müqəddəsdir. Şəhidlərimizi yaşatmaqla biz xalqımızı ucaldırıq. Onların əziz xatirəsini nəsildən-nəslə ötürmək hər birimizin vətəndaşlıq borcudur. Məhz elə buna görə də Bakı şəhərində şəhidlərin xatirəsinə möhtəşəm xatirə kompleksi ucaldılmışdır. Eyni zamanda 20 yanvar hadisələrinin günahsız qurbanlarına, onların ailə üzvlərinə dövlət tərəfindən daim qayğı göstərilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli Fərmanına əsasən, 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına «20 Yanvar şəhidi"» fəxri adı verilmiş, «1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında"» 2003-cü 15 yanvar tarixli**

**Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır. Artıq bir neçə ildir ki, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun illik büdcəsində 20 Yanvar hadisələrində əlil olmuş səxslərə müvafiq müavinət məbləği nəzərdə tutulur.**

**. Azərbaycan dövləti, xalqımız 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutur. Ölkəmizin rəsmi təqviminə 20 Yanvar Ümumxalq Hüzn günü kimi daxil edilmiş və hər ilin bu günündə xalqımız öz igid övladlarının fədakarlığını qeyd edir, onların əziz xatirəsini böyük ehtiramla yad edir.**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 3 yanvar 2005-cü il tarixdə 20 Yanvar gününün Azərbaycanın tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyətini nəzərə alaraq, bu faciənin on beşinci ildönümü münasibətilə Sərəncam imzalamış, respublikamızın bütün şəhər, rayon və kəndlərində qanlı faciənin ildönümünə həsr olunmuş tədbirlərin keçirilməsi ilə bağlı tapşırıqlar vermışdır.**

**20 Yanvar 1990-cı il tarixdə dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, habelə insan hüquqlarına dair digər beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur.**

**Məlumdur ki, müasir beynəlxalq hüququn ən mühüm nailiyyətlərindən biri insan hüquqlarının qorunmasının dövlətlərarası əməkdaşlıq səviyyəsinə çıxarılması, onlara beynəlxalq təminatların yaradılmasıdır. Bununla da insan hüquqları dövlətlərin sırf daxili səlahiyyətləri çərçivəsindən çıxaraq beynəlxalq əhəmiyyət kəsb etməyə başlamışdır.**

**Lakin təəsüf hissi ilə qeyd edilməlidir ki, kütləvi insan hüquqlarının pozulması ilə nəticələnmiş 20 Yanvar faciəsinə bu günə kimi beynəlxalq hüquqi qiymət verilməmişdir.**

**Ümüd edirik ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar bu haqlı tələblərimizi dəstəkləyəcək, Azərbaycan xalqına qarşı törədilmiş və insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması ilə müşayiət olunmuş bu dəhşətli cinayət özünun beynəlxalq hüquqi qiymətini alacaqdır.**

**Xalqımız 20 Yanvar faciəsi qurbanlarının milli azadlıq mübarizəsi uğrunda o qanlı gecədə nümayiş etdirdiyi birliyi heç vaxt unutmayacaq, ölkəmizin bu günü və gələcəyi, taleyüklü prioritet məsələlərinin həlli üçün, insan hüquqlarının müdafiəsinin, qanunun aliliyinin hər şeydən üstün tutulması naminə öz milli həmrəyliyini daha da möhkəmləndirəcəkdir.**

**Elmira Süleymanova**

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**18 yanvar 2005-ci il**

**Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına və bu qurumlara üzv olan Ombudsmanlara ünvanlanmışdır.**